Azərbaycan Respublikası təhsil nazirinin

16 mart 2016-cı il tarixli

152 №-li əmri ilə təsdiq olunmuşdur

# “Məktəblərin Yaşıl Şəbəkəsi” müsabiqəsinin

# Əsasnaməsi

Müasir dövrdə ətraf mühitdə ekoloji problemlərin artması, qlobal ekosistemə antropogen təsirin güclənməsi səbəbi ilə insanların təbii ehtiyatlardan istifadəyə münasibətinin dəyişdirilməsi və ekoloji etik qaydaların müasir prinsiplərinə əməl etməsi tələb olunur. Təbii ehtiyatların qənaətcil istifadəsinə, tullantıların təkrar emalına və kompleks şəkildə ekoloji vəziyyətin öyrənilməsinə dair müasir təhsil proqramları vasitəsilə təhsil müəsisələrində təbii resursların səmərəli istifadəsini təşkil etmək məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyi Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzi “Məktəblərin Yaşıl Şəbəkəsi” müsabiqəsini keçirir.

## 1. Müsabiqənin məqsədi və vəzifələri

Müsabiqənin keçirilməsində əsas məqsəd məktəblilərin ekoloji biliklərinin artırılması, onlarda ətraf mühitin qorunması və təbii ehtiyatların istifadəsi sahəsində xüsusi bacarıqların formalaşdırılmasından ibarətdir.

1.1. “Məktəblərin Yaşıl Şəbəkəsi” müsabiqəsi Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzinin təşkilatçılığı ilə keçirilir.

- Bakı şəhərində ekoloji yönümlü və enerji effektli pilot məktəblərinin yaşıl şəbəkəsinin yaradılması;
- “Mənim məktəbim – ətraf mühitə diqqətlidir” ekoloji embleminin məktəbə verilməsidir.
- Uşaqlar və onların ailələri üçün enerjinin effektiv istifadəsi və həyat fəaliyyətinin ekoloji səmərəli təşkilinə dair proqram;
- Məktəb rəhbərləri daxil olmaqla, seçilmiş məktəb müəllimləri üçün maarifləndirici təlimlərin keçirilməsi;
- Proqramı hazırlayan xüsusi ekspertlər və “Ekoklub” təlimçiləri tərəfindən məktəblərdə nümunəvi açıq dərslərin keçirilməsi;

- Məktəblərin ekoloji sertifikasiyası və “Məktəblərin Yaşıl Şəbəkəsi” nişanı üzrə müsabiqənin keçirilməsi;
- Facebook səhifəsinin açılması və bütün seçilmiş məktəblərin fəal şagidlərindən ibarət pilot qruplarının yaradılması;
- Müəllimlər, məktəblilər və valideynlərin iştirakı ilə yaradılmış məktəb ekoloji şurası tərəfindən ekoidarəetmə proqramının hazırlanması və tətbiqi;
- Bütün məktəblərdə vahid tədbir günlərinin və tematik aylıqların elan edilməsi, praktiki tədbirlərin keçirilməsi (uşaq qrupları ilə müzakirələr, “İdeyalar sərgisi”);
- Məktəbdə yaşıl infastrukturun yaradılması – (suya qənaət, tullantıların idarə olunması, enerjiyə qənaət, yaşıl yeməkxana və ekoloji istehlak);
- Kommunal xidmətlərin və enerji resurslarının ödənişi üçün büdcə vasitələrinə qənaət proqramının öyrədilməsi;
- Məktəbyanı sahələrin fitodizayn və landşaft dizaynı üzrə proqramın hazırlanması və tətbiq olunması (uşaq müsabiqəsi);
- Sağlam qidalanma, yaşıllaşdırma, tullantıların utulizə edilməsi, yağış suyunun yığılması, günəş batareyaları, iqlim nəzarətinin istifadəsi imkanlarının öyrənilməsi;
- Məktəblərin sertifikasiyası.

1.2. Təqdim olunan proqramın nəticəsində ekoloji yönümlü cəmiyyətin inkişaf şəraitində vətəndaşların qənaətcil davranış prinsiplərinə xidmət edən enerji ehtiyatlarından səmərəli istifadə, tullantıların təkrar istifadəsinin kreativ həlli, su təminatı, sağlam qidalanma, iqlim dəyişmələrinin təsirin azaldılması bacarıqları məktəblilərə aşılanacaqdır.

## 2. Müsabiqənin iştirakçıları

Müsabiqə 3 yaş həddində olan məktəblilər arasında keçiilir:

- I – IV siniflər (ilkin səviyyə)
- V - VIII siniflər (orta səviyyə)
- IX - XI siniflər (irəliləyiş səviyyəsi)

Proqramda Bakı şəhərinin orta təhsil müəssisələri və pilot məktəbləri iştirak edir.

Qeyd: Müsabiqədə məktəblilərlə birgə Bakı Dövlət Universitetinin "Ekologiya və torpaqşunaslıq" fakultəsinin könüllüləri və ölkənin digər ali təhsil ocaqları da iştirak edəcəkdir..

**3. Müsabiqənin keçirilmə qaydaları**

3.1 Uşaqlar və onların ailələri üçün enerjinin efektiv istifadəsi və həyat fəaliyyətinin ekoloji səmərəli təşkilinə dair proqramın keçirilməsi. Tədrisin tematikası: səmərəli enerji təsərrüfatı, günəş batereyalarının istifadə imkanları, yağış sularının yığımı, "Ağıllı ev" və "Ekoloji məktəb", suyun istifadəsi, tullantıların emal edilməsi və təkrar istifadəsi, fitodizayn və yaşıllaşdırma, istehsal və istehlak, düzgün qidalanma.

3.2. Məktəb rəhbərləri daxil olmaqla seçilmiş məktəb müəllimləri üçün maarifləndirici görüşlər keçirilməsi. Görüşlərdə proqramda iştirak edən hər məktəbdən 4 nəfər (1 məktəb direktoru, 3 müəllim - ibtidai, orta, yuxarı sinif rəhbərləri) iştirak edə bilər. Proqramın təkmişlləşdirilməsi və monitorinqi üçün ildə 3 dəfə görüş keçiriləcəkdir.

3.3. Proqramı hazırlayan xüsusi ekspert və "Ekoklub" təlimçiləri tərəfindən məktəblərdə nümunəvi açıq dərslər keçiriləcəkdir. Proqramın mənimsənilməsi üçün ilk növbədə bir neçə məktəblərdə açıq dərs nümayiş olunacaq.

3.4. "Məktəblərin Yaşıl Şəbəkəsi" mövzusunda məktəb ekoloji sertifikatlaşdırılma müsabiqəsinin keçirilməsi. İlin əvvəlində məktəb komandalarının iştirakı ilə məktəblərarası müsabiqə keçirilir. Müsabiqənin məqsədi məktəblərdə enerjiyə, suya, temperatura nəzarət, tullantıların təkrar istifadəsi, yemək rasionunun yoxlanılmasıdır. Müsabqənin sonunda məktəblərin ekoloji pasportlaşdırılması tərtib olunacaqdır. Qiymətləndirmə sisteminin hazırlanması və sertifikatların yerinə yetirilməsi qaydaları elan ediləcəkdir.

3.5. Facebook səhifəsinin açılması və bütün seçilmiş məktəblərin fəal şagidlərindən ibarət pilot qruplarının yaradılması.Tədbirin keçirilməsi məqsədilə məktəblərdə aktiv ekoqruplar təşkil olunur. Facebook səhifəsi açılır və orada məktəbin nailiyyətləri qeyd olunur. Məktəblərdə ekoloji şura təşkil olunur. Şuraya müəllimlər, şagirdlər və valideynlər daxildir. Şura ayda 1 dəfə, pilot ili ərzində 12 dəfə keçirilir.

3.6. Bütün məktəblərdə vahid tədbir günlərinin və tematik aylıqların elan edilməsi, praktiki tədbirlərin keçirilməsi (uşaq qrupları ilə müzakirələr, "İdeyalar sərgisi"). Aktiv uşaq qrupları və məktəbin ekoloji şurasi tərəfindən vahid tematik günlərin keçirilməsi üçün lahiyənin əvvəlində

12 tematik gün üzrə fikir mübadiləsi keçirilir. 12 məktəbdən hər biri tədbirin bir günü üçün cavabdehdir və tədbirlər birgə keçirilir.

3.7. Məktəbdə infastrukturun yaradılması (suya qənaət, tullantıların idarə olunması, enerjiyə qənaət, yaşıl yeməkxana və ekoloji istehlak). Hər məktəbdə il ərzində məktəblilər tərəfindən ekoloji yönümlü və enerji effektli pilot məktəblərinin proqramın keyfiyyətli yerinə yetirilməsinə nəzarət edərək xüsusi tədqiqat jurnallarına qeyd edirlər. Hər rübün sonunda ildə 4 dəfə məktəblərin göstərişiləri üzrə reytinq keçirilir.

3.8. Məktəbyanı sahələrin fitodizayn və landşaft dizaynı üzrə proqramının hazırlanması və tətbiq olunması (uşaq müsabiqəsi). Məktəbin hər sinifində xüsusi seçilmiş bitkilərlə (fitodizayn) yaşıllaşdırılma müsabiqəsi keçirilir. Dizaynın uğurlu layihələri (interyerin yaşıllaşdırılması və havanın ekoloji cəhəddən təmizlənməsi, tullantıların təkrar istifadəsi, gül və bitki dibçəklərinin kreativ hazırlanması), uşaqların texnologiya dərslərində iştirakı və hazırlığına dair vəsaitlər nəşr olunaraq bütün məktəblərə paylanır.

3.9. “Ekoloji yönümlü və enerji effektli məktəblərin yaşıl şəbəkəsi” mövzusunda tədbirin təşkil edilməsi. Tədbir 2016-cı ilin yanvar ayından dekabr ayına qədər davam edəcəkdir.

**4. Mükafatlandırma**

İlin sonunda qeyd olunan proqramlar üzrə qalib seçilmiş məktəb “Mənim məktəbim – ətraf mühitə diqqətlidir” emblemi və Fəxri Fərmanla təltif olunur. Məktəbdə şərəf lövhəsi yerləşdirilir və proqramda iştirak edən bütün məktəblilər sertifikatlarla təltif olunurlar. Digər məktəblər qazandıqları ballara uyğun diplomla təltif olunurlar. Hərəkatın fəal iştirakçıları proqram zamanı müəyyən edilmiş nominasiyalarla təltif olunurlar (qabaqcıl müəllim, şagird, ailə, sinif və s.)